# ŞAHDƏNİZ 2 LAHİYƏSİ

***”Bu gün 17.12.2013 müasir Azərbaycanın tarixində tarixi gündür”. Azərbaycan Prezidenti İlham Əliyev çərşənbə axşamı Bakıda ”Şahdəniz” qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi üzrə yekun investisiya qərarının imzalanması mərasimində deyib.Dövlət başçısının sözlərinə görə, ”Şahdəniz 2” enerji layihəsi üzrə yekun investisiya qərarının qəbul edilməsi Azərbaycanın uzunmüddətli uğurlu iqtisadi inkişafını təmin edəcək.Azərbaycan Prezidenti bildirib: ””Şahdəniz 2” layihəsi dünyada ən iri enerji layihəsidir.***



Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi, bu tarixi layihəyə cəlb olunmuş ölkələr və şirkətlər arasında geniş beynəlxalq əməkdaşlıq layihəsidir”.Dövlət başçısı 19 il əvvəl - Azərbaycanın enerji strategiyasının həyata keçirilməyə başladığı 1994-cü ildə baş verən hadisələri xatırlayıb.Azərbaycan Prezidentinin sözlərinə görə, ümummilli lider Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi sayəsində müstəqilliyin əldə edilməsindən cəmi üç il, Azərbaycanda vətəndaş müharibəsinin başa çatmasından bir il və Ermənistanla atəşkəs rejimi haqqında razılığın əldə olunmasından dörd ay sonra Azərbaycan əcnəbi tərəfdaşlarla birgə ”Əsrin müqaviləsi”ni imzaladı. Bu müqavilə ilk dəfə olaraq Xəzər regionunu xarici investisiyalar üçün açdı və Azərbaycanın uğurlu iqtisadi inkişafını təmin etdi.Prezident İlham Əliyev bildirib ki, bu, 20-ci əsrin müqaviləsi idi. Dövlət başçısının sözlərinə görə, ”Şahdəniz” layihəsi, çox güman ki, 21-ci əsrin layihəsi adlandırılacaq: ”Lakin bugünkü mərasimə qədər müstəqil Azərbaycanın inkişafı tarixində bir neçə vacib mərhələ olub. 1996-cı ildə ”Şahdəniz” qaz-kondensat yatağının işlənməsi layihəsi üzrə müqavilə imzalandı. Daha sonra, 1999-cu ildə Qara dənizlə Xəzər dənizini birləşdirən və Bakıdan Gürcüstanın Qara dəniz sahillərinədək uzanan ilk boru kəməri inşa edildi”.Dövlət başçısı qeyd edib ki, daha sonra - 2006-cı ilin mayında Bakı-Tbilisi-Ceyhan boru kəməri istismara verildi: ”Bu kəmər ilk dəfə olaraq Xəzər regionunu beynəlxalq bazarlarla, o cümlədən Aralıq dənizi bazarları ilə birləşdirdi. 2007-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən və ”Şahdəniz 2” layihəsinin bir hissəsi olan Cənubi Qafqaz qaz kəməri tikildi”.Prezident İlham Əliyevin sözlərinə görə, 2011-ci ildə Azərbaycan və Avropa İttifaqı strateji enerji əməkdaşlığına dair memorandum imzaladı ki, bu sənəd Azərbaycanın enerji strategiyasının inkişafına kömək etdi, enerjinin şaxələndirilməsini və Avropaya qaz ixracını təmin etdi: ”2012-ci ildə biz Türkiyə ilə Trans Anadolu qaz kəməri - TANAP üzrə tarixi saziş imzaladıq. Bu il, 2013-cü ildə Trans Adriatik boru kəməri (TAR) əsas ixrac marşrutu kimi seçildi və indi biz ”Şahdəniz 2” üzrə yekun investisiya qərarını imzalayırıq”Bunuda qeyd etmək lazimdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak etmişlər.




# EUROHOME

## *Müasir dam örtükləri*

**Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi**

ruukki

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı. Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**








**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**

## Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

Heydər Əlirza oğlu Əliyev



**Zərifə Əziz qızı Əliyeva**

Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**

Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



## Azərbaycan inkişaf etmiş dövlətlər sırasında

***Dövlət başçısı Bakı Dövlət Universitetinin 90 illik yubileyi ilə bağlı keçirilən təntənəli mərasimdəki çıxışında bununla bağlı demişdir: "Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Müxtəlif hesablamalara görə, Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir. Mən hesab edirəm ki, artıq bu sahədə keçid dövrü başa çatıbdır.***

Dünya İqtisadi Forumu - dünyanın ən mötəbər qurumlarından biri olan bu təşkilat rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı dünya miqyasında 51-ci yerdə görür və bütün MDB məkanında biz bu sahədə birinci yerdəyik. Dünya Bankının hesablamalarına görə, Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı. Bu, bir daha onu göstərir ki, bizim uğurlarımızın əsas səbəbi ölkədə aparılan siyasi və iqtisadi islahatlardır".

Şübhəsiz, dövlət başçısının iqtisadi sahədə keçid dövrünün yekunlaşması ilə bağlı bəyanatı ölkənin son 15 ildə keçdiyi sürətli inkişafın və davamlı islahatların məntiqi yekunu sayıla bilər. Dövlət başçısı cənab İlham Əliyevin son 15 ildə uğurla davam etdirdiyi sosial-iqtisadi islahatların praktik nəticələri Azərbaycan üçün hələ ötən əsrin 90-cı illərinin əvvəlindən başlanmış mürəkkəb ictimai-iqtisadi formasiya dəyişkənliyi mərhələsinin artıq geridə qaldığını deməyə ciddi əsaslar verir. Söhbət iqtisadi sahədə keçid dövrü üçün zəruri qanunverici, institusional, maddi-texniki bazanın formalaşdırılması prosesinin yekunlaşmasından gedir. Son 20 ildə iqtisadiyyatın inkişafı üçün yeni qanunlar qəbul olunmuş, özəlləşdirmə prosesi, vergi, torpaq, gömrük islahatı əsasən başa çatmış, infrastrukturun yeniləşdirilməsi keyfiyyətcə yeni mərhələyə adlamış, güclü yanacaq-energetika və neft sənayesi formalaşmış, sahibkarlığın milli inkişafda rolu artmış, sosial problemlərin böyük qismi həllini tapmış, respublikamızın dünya iqtisadi-təsərrüfat sisteminə inteqrasiyası təmin olunmuş, Azərbaycan özü və bölgə dövlətləri üçün etibarlı enerji təhlükəsizliyi sistemi yaratmışdır.



Sovet dövründən qalmış idarəetmə sistemi tamamilə yeniləşmiş, müasir dövrün tələbi ilə səsləşən yeni dövlət qurumları yaradılmış, bir sözlə, struktur islahatları uğurla yekunlaşmışdır. Bu gün milli iqtisadi inkişaf modeli ilə tanınan Azərbaycan sovet dövründən qalmış köhnə infrastrukturdan tamamilə azad olaraq iqtisadi-mədəni səviyyədə modernləşir, ölkənin hər bir guşəsində müasir tələblərə cavab verən abadlıq-quruculuq işləri aparılır. Bütün bunlar isə məhz iqtisadi sahədə keçid dövrünün geridə qaldığını əminliklə söyləməyə ciddi əsaslar yaradır.

Dövlət büdcəsi isə Azərbaycanın keyfiyyətcə yeni mərhələdə davamlı inkişafı üçün yaxşı imkanlar açır. Büdcə layihəsi hazırlanarkən dövlətin inkişafı üçün elmi əsaslar üzərində müəyyən edilmiş strateji xəttə uyğun olaraq dövlət büdcəsinin sosial və investisiyayönümlülüyünün təmin edilməsinə, əhalinin aztəminatlı təbəqəsinin sosial təminatının gücləndirilməsinə, ölkənin müdafiə potensialının, iqtisadi, enerji, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, sahibkarlığın inkişafına dəstək verilməsinə, qəbul olunmuş məqsədli dövlət proqramlarının maliyyələşdirilməsinə xüsusi diqqət yetirilmişdir.

Ötən dövrünün yekunları deməyə əsas verir ki, hökumət ötən illərdən başlanmış davamlı iqtisadi yüksəliş və tərəqqi kursuna əsaslanaraq makroiqtisadi sabitliyini qoruyub saxlamış, son dərəcə çətin bir şəraitdə nəzərəçarpacaq irəliləyişlərə nail olmuşdur. Ən əsası, ictimai-iqtisadi formasiya dəyişkənliyi fonunda hələ ötən əsrin 90-cı illərinin əvvəlindən planlı iqtisadiyyatdan liberal bazar münasibətlərinə keçid yönümündə həyata keçirilən kompleks tədbirlər sistemi uğurla yekunlaşmışdır. Başqa sözlə, respublikamız bazar iqtisadiyyatı üçün xarakterik olan bütün islahatları uğurla yekunlaşdıraraq keyfiyyətcə yeni mərhələyə - modernləşmə fazasına qədəm qoyur. Bu mərhələnin əsas vəzifəsi isə iqtisadiyyatın ənənəvi sahələrinin yeni dövrün tələblərinə uyğun, ən müasir texnologiyalar hesabına yüksəlişini təmin etmək, Azərbaycanı inkişaf etmiş dövlətlər sırasına çıxarmaqdır.

# Azərbaycanda həyatın bütün sahələri üzrə inkişaf hiss olunur



***1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbləri ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu ilə paralel olaraq müstəqil iqtisadi sistemin yaradılması və daha da inkişaf etdirilməsi istiqamətində düşünülmüş və uzaq hədəflərə istiqamət götürmüş geniş islahatlar kursu həyata keçirilməyə başlandı.***

Aparılan uğurlu iqtisadi islahatlar sayəsində iqtisadiyyatın müasir dövrün tələblərinə uyğun, bazar münasibətləri əsasında yenidən qurulması, sahibkarlığın inkişaf etdirilməsi, yeni infrastrukturların, maliyyə və vergi sisteminin formalaşdırılması, tarixdə ən mürəkkəb proses kimi xarakterizə olunan torpaq və aqrar islahatların aparılması, regionların ahəngdar inkişafı, yoxsulluğun aradan qaldırılması, insanlara öz potensialından sərbəst istifadə etmək və sahibkarlığa dəstək verməklə iqtisadiyyatın liberallaşmasının bərqərar olması üçün münbit zəmin hazırlanmış, müstəqil dövlətimizin təhlükəsizliyinin, eləcə də onun ən vacib elementlərindən olan iqtisadi təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamışdır.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və regionda real güc mərkəzinə çevrilməsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş iqtisadi islahatlar və bu gün də həmin siyasi və iqtisadi islahatlar kursunun Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində mümkün olmuşdur. Ümummilli liderin, "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir" fikri bir daha təsdiq edir ki, Heydər Əliyev milli iqtisadiyyatımızın inkişafına dövlət quruculuğunun çox mühüm tərkib hissəsi kimi hər zaman böyük önəm vermişdir.

Zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş iqtisadi strategiyanın bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi Azərbaycanın daha yüksək zirvələrə doğru inamla irəliləməsi üçün zəmin yaratmışdır. İqtisadi potensialın ildən-ilə güclənməsi, əhalinin maddi-rifah halının yaxşılaşdırılması, müxtəlif istiqamətlərdə genişmiqyaslı islahatların aparılması Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmış məqsədyönlü dövlət proqramlarının ana xəttini təşkil edir. 2003-cü ildən ötən dövr ərzində həyata keçirilmiş iqtisadi layihələr qarşıya qoyulmuş ali məqsədə real xidmətin bariz göstəricisidir.

Ötən dövr ərzində Azərbaycan iqtisadiyyatı yüksək sürətlə inkişafını davam etdirmişdir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində ölkəmiz son illərdə iqtisadi artım üzrə dünyada lider dövlətə çevrilmişdir. İqtisadiyyatın bütün sahələrində irimiqyaslı islahatların sistemli və düşünülmüş şəkildə davam etdirilməsi Azərbaycanı dünyanın ən islahatçı ölkəsi kimi tanıtmışdır.

Bu gün ölkəmiz regionun və dünyanın böyük iqtisadi layihələrinin təşəbbüskarına və əsas tərəfdaşına çevrilmişdir. Təbii ki, bütün bunlar Azərbaycan Prezidenti cənab İlham Əliyevin çox uğurla həyata keçirdiyi uzaqgörən siyasəti, sosial-iqtisadi inkişafın bütün sahələrini əhatə edən dövlət proqramları sayəsində mümkün olmuşdur. Ölkə Prezidentinin şəxsi təşəbbüsü və nəzarəti altında müasir dünya standartlarına cavab verən çoxsaylı sənaye, səhiyyə, təhsil müəssisələrinin, idman komplekslərinin, nəqliyyat, enerji və rabitə infrastrukturlarının, qaçqınlar üçün qəsəbələrin tikintisi, ölkəmizin abadlaşması və inkişafı ilə bağlı mühüm obyektlərin inşası, bu obyektlərin açılışı mərasimlərində şəxsən iştirakı, əhalinin həyat səviyyəsi ilə tanış olmaq üçün regionlara çoxsaylı səfərləri Azərbaycanın daha yüksək inkişafı və xalqımızın xoşbəxt gələcəyi naminə gördüyü işlərdəndir.

2008-ci ildə yenidən Prezident seçkilərində xalqımızın yekdilliklə cənab İlham Əliyevi ölkə Prezidenti seçməsi Azərbaycanda həyatın bütün sahələri üzrə inkişafa növbəti təkan vermiş oldu. Prezident İlham Əliyevin çox uğurlu, bənzərsiz fəaliyyəti xalqımızın öz seçimində yeganə, düzgün yol müəyyənləşdirdiyini və seçdiyini bir daha təsdiq etdi.

Prezident İlham Əliyevin çox uğurla davam etdirdiyi və inkişaf etmiş dünya ölkələrinin islahatlar praktikasından bəhrələnməklə həyata keçirdiyi praqmatik fəaliyyəti sayəsində son illər Azərbaycan iqtisadiyyatı sürətli inkişaf etməkdədir. Statistik məlumatların təhlili onu göstərir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin çox uğurlu, rəhbərliyi altında iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində əməli tədbirlər həyata keçirilmişdir. Qeyri-neft sektorunun, o cümlədən aqrar bölmənin inkişafında regionların sosial-iqtisadi inkişafına dair birinci dövlət proqramının misilsiz rolu olmuşdur. Bu proqram ölkəmizin iqtisadi inkişafında yeni mərhələnin başlanğıcını qoydu və regionların inkişafı dövlətin iqtisadi siyasətinin əsas istiqamətləri səviyyəsinə qaldırıldı.



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-cı ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

*İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.*

*1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.*

*1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olmuşdur.*

*MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur.*

*1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi dərəcəsi almışdır.*

*1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir.*

*1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışmışdır və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.*

*1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. "Heydər Əliyevin neft strategiyası"nın həyata keçirilməsində fəal iştirak etmişdir.*

*Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.*

*İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə ələqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.*

*1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.*

*1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.*

*2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.*

*2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.*

*2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.*

*2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. O, 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır.*

*2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.*

*2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 % səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 2008-ci il oktyabrın 24-də vəzifəsinin icrasına başlamışdır.*

*Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.*

*Evlidir. Üç övladı, üç nəvəsi var.*

*Prezident Əliyevin təltif olunduğu orden, mükafat və fəxri adlar aşağıdakıları əhatə edir: Heydər Əliyev ordeni (Azərbaycan Respublikası), Beynəlxalq münasibətlər və sülh naminə İhsan Doğramacı mükafatı (Türkiyə), Rumıniya Ulduzu Ordeni (Rumıniya), Kral Əbdüləziz Ordeni (Səudiyyə Ərəbistanı Krallığı), Şərəf Ordeni (Gürcüstan), "Şərəf Legionunun Böyük Xaçı" Ordeni (Fransa), Şeyxülislam Ordeni (Azərbaycan Respublikası), Rusiya Pravoslav Kilsəsinin*



*"Prepodobnıy Sergiy Radonejskiy" birinci dərəcəli Ordeni, "Böyük Kordon" Şərəf Ordeni (Beynəlxalq Hərbi-İdman Şurası), MDB ölkələrin İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının "Şərəf Ordeni", FİLA-nın Şərəf Zalının ən yüksək "İdman Əfsanəsi" ordeni, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç ordeni (Polşa), I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni (Ukrayna), "Mübarək əl-Kəbir" ordeni (Küveyt Dövləti), Yunanıstan parlamentinin Qızıl medalı (Yunanıstan), Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı, "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsi, "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı (Rumıniya), "İsmoili Somoni" ordeni (Tacikistan).*

*Linkoln Universitetinin Fəxri Doktoru (ABŞ), Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin Fəxri Doktoru, L.N.Qumilyov – Avrasiya Milli Universitetin Professoru (Qazaxıstan), Bilkənt Universitetinin Fəxri Doktoru (Türkiyə), Vergilər üzrə Milli Akademiyanın Fəxri Doktoru (Ukrayna), Ploesti Neft və Qaz Universitetinin Fəxri Doktoru (Rumıniya), Milli və Dünya İqtisadiyyatı Universitetinin Fəxri Professoru (Bolqarıstan), Kyung Hee Universitetinin Fəxri Doktoru (Cənubi Koreya), İordaniya Universitetinin Fəxri Doktoru (İordaniya), Korvinus Universitetinin ictimai elmlər üzrə Fəxri doktoru (Macarıstan), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fəxri professoru (Rusiya Federasiyası), Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru (Ukrayna), Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru (Türkmənistan Respublikası), Bakı Dövlət Universitetinin Fəxri doktoru (Azərbaycan), Belarus Dövlət Universitetinin Fəxri professoru (Belarus Respublikası), Ankara Universitetinin Fəxri dokrotu (Türkiyə), Çukurova Universitetinin Fəxri Doktoru (Türkiyə).*



# Yüksək idarəçilik mexanizmi ölkəmizin inkişafında xüsusi rol oynayır

***Tarixin gedişinə təsir göstərən böyük siyasi liderlər irəli sürdükləri mütərəqqi ideyalarla xalqı öz ətrafında birləşdirməyə, hər bir addımda ictimai inam qazanmağa çalışmış, məhz bunun da sayəsində böyük uğurlara imza atmışlar. Fəaliyyətində daim ictimai mənafeni əsas götürən, xalqın dəstəyinə arxalanan siyasi lider konkret siyasi mərhələdə xalqın sabit inkişaf yolunu düzgün müəyyənləşdirmək, milli maraqları qorumaq əzmi ilə seçilir. Siyasətdə ictimai inam qazanmaq meramı demokratik dəyərlərin ön plana çıxdığı hazırkı "sürət əsri"ndə də qətiyyən aktuallığını itirmir. Hakimiyyəti millətə layiqli xidmət vasitəsi sayan və bunu əməli fəaliyyəti ilə sübuta yetirən liderlər milyonlarla insanın iradəsi əsasında dövlətə rəhbərlik şansını qazanırlar.***

Dövrun sərt sınaqlarından üzüağ çıxan Azərbaycan xalqı da taleyini hər zaman qəlbən inandığı, etimad göstərdiyi siyasi liderlə bağlamışdır. Müstəqil Azərbaycan yeni minilliyin başlanğıcında ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin ideyalarının layiqli davamçısı - cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu gələcəyə doğru inamla irəliləyir, bu yolda qarşılaşdığı müxtəlif maneələrə, çətinliklərə mətinliklə sinə gərir. Azərbaycanda demokratiyanın təntənəsi kimi tarixiləşən 2008-ci ilin 15 oktyabr seçkiləri də mahiyyət etibarilə xalqın cənab İlham Əliyevə dərin inam və etimadının əyani təsdiqinə çevrilmiş, ölkə vətəndaşları respublikada uğurla həyata keçirilən islahatlar kursunun davam etdirilməsi naminə ciddi siyasi iradə və qətiyyət nümayiş etdirmişlər.

Prezident seçkiləri bir qayda olaraq konkret zaman kəsiyində reallaşdırılan siyasətin ictimai rəy tərəfindən adekvat dəyərləndirilməsi prosesi kimi də xarakterizə edilir. Seçkilər ərəfəsində hakimiyyət xalqın və dövlətin mənafeyi naminə həyata keçirdiyi kompleks tədbirlər barədə hesabat verərək seçicilərin səsini qazanmağa çalışır. Bu mənada cənab İlham Əliyevin son seçkilərdəki möhtəşəm zəfəri ilk növbədə son 14 ildə ölkənin keçdiyi inkişaf yoluna verilən obyektiv ictimai qiymətdir. Dövlət başçısı ötən müddətdə konseptual əsasları ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş islahatları uğurla davam etdirmiş və yeni çalarlarla zənginləşdirmişdir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən 15 ildə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar onun daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev zaman baxımından o qədər də böyük olmayan bir müddətdə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir vətəndaşın marağına cavab verən, cəmiyyət həyatının müxtəlif sahələrində uğurlu nəticələrə yol açan çevik, qətiyyətli və düzgün qərarlar qəbul etmişdir. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü isə, şübhəsiz, uzun illər boyu zərrə-zərrə



formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir. Cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində son illər əldə etdiyimiz uğurlar məhz bu amilə əsaslanır. Siyasi illüziyalardan, populizmdən uzaq olması, problemlərə rasional mövqedən və real situasiyadan yanaşması, praqmatizmi və yüksək idarəçilik keyfiyyətləri cənab İlham Əliyevin yetkin və peşəkar siyasətçi portretini formalaşdırır. Bütün bu keyfiyyətləri dövlət başçısının malik olduğu yüksək qətiyyət, intellekt, enerji, potensial, işgüzarlıq, novatorluq və birləşdiricilik məziyyətləri tamamlayır.

Mübaliğəsiz demək olar ki, mövcud siyasi kursun ictimaiyyət tərəfindən birmənalı dəstəklənməsini təmin edən ən başlıca amil son beş ildə müstəqil Azərbaycanın əldə etdiyi misilsiz sosial-iqtisadi nailiyyətlərdir. Ötən müddətdə ölkənin davamlı və sabit inkişafı baxımından vacib amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmış, respublikamız iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri sırasına yüksəlmiş, sosial problemlərin aradan qaldırılması istiqamətində ardıcıl addımlar atılmış, Azərbaycan Avropa geosiyasi arealında həyata keçirilən qlobal layihələrin təminatçısına çevrilmişdir. Bu gün ikinci elə bir dövlət tapmaq çətindir ki, son 15 ildə ümumi daxili məhsulun artım tempinə görə dünyada lider mövqeyini qoruyub saxlasın, qısa müddətdə dövlət büdcəsinin vəsaitlərini 20 dəfədən çox artıra bilsin. Azərbaycan isə bunlarla yanaşı, həm də regionların sosial-iqtisadi inkişafına xidmət edən mühüm dövlət proqramlarını, fərman və sərəncamları uğurla icra etmiş, həyata keçirilən sosial infrastruktur layihələri nəticəsində bölgələrin siması dəyişmiş, sahibkarlığın inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, yeni iş yerlərinin açılması naminə sistemli addımlar atılmışdır.

# İsmayıllı Firuzə




Didərgin Füzulinin 47 saylı tam orta məktəbində olarkən bir çox nümunəvi şagirdlərlə tanış oldum. Belə şagirdlərdən biri və ən yadda qalanı İsmayıllı Firuzə Fəxrəddin qızı oldu.

Firuzə 2011-ci il avqustun 17-də Bakıda anadan olub. Sulutəpədə uşaq bağçasında təhsil haqqında ilk bilgiləri alıb. 2017- ci ildə Füzuli rayon 47 saylı tam orta məktəbin birinci sinfinə daxil olub. Sinif rəhbəri Qurbanova Zərnigar müəllim Firuzənin nizam-intizamından çox razı olduğunu söylədi. Müəlliməsi deyir ki, Firuzə riyaziyyat fənninə xüsusi maraq göstərir. Firuzə böyüyəndə həkim olmaq istəyir.

Atası- İsmayılov Fəxrəddin 1972-ci ildə Ağdam rayonunda anadan olub. Neft Kimya İnstitutunu bitirib. Mühəndis işləyir. Anası- Səfərova Sevinc 1977-ci ildə anadan olub. Azərbaycan Dövlər Tibb Universitetinin əczaçılıq fakültəsini bitirib. Hazırda əczaçı işləyir.

Firuzənin bacısı Fərəh iki yaşındadır.

Firuzənin dərslərində, ümumiyyətlə onun məktəb həyatında ona ən çox kömək edən nənəsi Zoya xanımdır. Zoya xanım 47 saylı məktəbdə riyaziyyat müəllimi işləyir. Məhz bu səbəbdən Zoya xanım Firuzənin məktəb həyatında şox önəmli rol oynayır.

Balaca Firuzənin təlim-tərbiyyəsində əsas rol oynayan insanlardan biri də, onun digər nənəsi Firuzə xanımdır. Firuzənin həkim olmaq kimi müqəddəs arzusunu elə Firuzə nənəsi cücərdib.

Firuzə dərslərini yaxşı oxumaqla yanaşı, həm də boş vaxtlarınında səmərli keçirməyi bacarır. Musiqiyə olan dərin marağını nəzərə alaraq valideynləri onun gələcəkdə musiqi ilə məşul olacağına inanırlar. Musiqiylə bərabər şahmat oynamağı da sevir.

Firuzənin ən böyük arzusu unudulmaz Qarabağı görməkdir. Əziz Firuzə Sənin arzuna biz də qoşuluruq .Gün o gün olsun ki, səninlə doğma Qarabağımızda görüşək...



# Həsənov Ramil



47 saylı Füzuli rayon tam orta məktəbin nümunəvi şagirdlərindən biri də Həsənov Ramil Kamil oğludur.

O, 2007-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə 47 saylı tam orta məktəbin birinci sinfinə daxil olub. Sinif rəhbəri Şəfəq xanımla söhbət edərkən o, Raminin təlim və tərbiyyəsindən razı qaldığını söylədi. Ramin bütün dərslərinə məsuliyyətlə hazirlaşır, müəllimin verdiyi bütün tapşırıqları səylə yerinə yetirməyə çalışır. Raminin yüksək nümunəvi davranışı onu təkcə sinfin yox, həm də məktəbin sevimli şagirdinə çevirib. Ramin dərsdən kənar vaxtalarını idmana həsr edir.

Raminin qardaşı Elcan onunla eyni sinifdə təhsil alır. Ramin qardaşına dərslərini hazırlamaqda öz köməyini əsirgəmir. Hər iki qardaşın futbola böyük həvəsi var.

Anaları- Samirə İbadova Sabirabad rayonunda anadan olub. Evdardir . Ataları- Həsənov Kamil Kamal oğlu Beyləqan rayonunda anadan olub. Ticarətlə məşğuldur.

Bu iki qardaş dostlarına mehriban davranışı ilə nümunəvi şagird göstəriciləri ilə daim müəllimlərin diqqət mərkəzindədirlər. Biz hər iki məktəbliyə təhsilində yeni-yeni uğurlar arzulayırıq.



# İqtisadi sahədə əldə olunan nailiyyətlərin effektiv şəkildə sosial sferaya yönəldilməsi müsbət nəticələr verməkdədir



***Ölkə başçısı İlham Əliyevin son 15 ildə apardığı məqsədyönlü siyasət iqtisadiyyatımızın dünyada analoqu olmayan sürətli inkişafını təmin etmiş, vətəndaşlarımızın sosial rifah halı daha da yüksəlmişdir. Dövlət başçısı tərəfindən həyata keçirilən irimiqyaslı islahatlar, imzalanan fərman və sərəncamlar, qəbul edilən qərarlar, reallaşan dövlət proqramları sayəsində Azərbaycan iqtisadi artım göstəricisi ilə dünyanın lider dövlət statusuna yüksəlmişdir.***

"Vətəndaş cəmiyyəti quruculuğu, demokratik proseslərin möhkəmləndirilməsi, hüquqi dövlətin formalaşdırılması, heç də şüar və arzu deyil, Azərbaycanın hərtərəfli inkişafının başlıca şərtidir. Bizim təcrübəmiz göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur" deyən dövlət başçısı hesab edir ki, hazırkı mərhələdə vətəndaşların sosial-siyasi, mədəni və iqtisadi rifahına xidmət edən islahatların davam etdirilməsi zəruridir. Demokratik dövlətin bir təsisat kimi başlıca vəzifəsi, bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın maddi rifah halının yüksəldilməsi, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin olunması, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların yaradılmasıdır.

Hər bir fərdin maraqlarının yüksək səviyyədə təmin olunmadığı cəmiyyətdə güclü dövlət yaratmağın mümkünsüzlüyü fikrini daim önə çəkən cənab İlham Əliyev həyata keçirdiyi genişmiqyaslı islahatlarla Azərbaycanı dinamik inkişaf yoluna çıxarıb. Yeni neft strategiyasının uğurla reallaşdırılması ölkəmizin beynəlxalq aləmdə nüfuzunu yüksəltməklə iqtisadi tərəqqinin əldə olunmasına imkan yaratdı. Böyük uzaqgörənliklə həyata keçirilən neft siyasətinin əsasını da məhz ölkənin proporsional iqtisadi inkişafı, sosial problemlərin həlli, vətəndaş azadlığının və digər demokratik dəyərlərin təmin olunması təşkil edirdi.

İqtisadi sahədə əldə olunan nailiyyətlərin effektiv şəkildə sosial sferaya yönəldilməsi müsbət nəticələr verməkdədir. Ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərinin qorunmasi yolu ilə yanaşı, cəmiyyətin aztəminatlı təbəqəsi üçün sosial yardım sisteminin formalaşdırılması, sosial ədalət prinsipinin bütün səviyyələrdə bərqərar olması aparılan sosial siyasət strategiyasının uğurlarından xəbər verir. Sosial sferada yüksək nailiyyətlər əldə etmiş qabaqcıl ölkələrin ən son təcrübəsindən istifadə edilməklə həyata keçirilən layihələr də böyük nəticələr verir. Təsadüfi deyil ki, Azərbaycan bölgədə həm də ən irimiqyaslı sosial layihələri gerçəkləşdirən dövlət kimi tanınır.

Bu gün Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatı ilə müqayisə edilməz səviyyədədir. Biz bütün cəhətlərdə onlardan üstünük. Həm siyasi imkanlarımız çox genişdir, həm beynəlxalq mövqelərimiz çox güclüdür, həm də iqtisadi potensial bir neçə dəfə çoxdur. Hərbi gücə gəldikdə isə, bir daha demək istəyirəm ki, Azərbaycan ordusu bölgədə ən qüdrətli ordudur. Biz hərbi gücümüzü artırırıq. Düzdür, bu, böyük vəsait tələb edir. Ancaq bunu etməliyik. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb və biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçılardan azad edək. Bununla bərabər, bu vaxta qədər görülmüş və bundan sonra görüləcək işlər Azərbaycanın hərtərəfli inkişafına xidmət edəcəkdir, Azərbaycanda sosial məsələlərin həllinə şərait yaradacaqdır. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, Azərbaycan dövləti belə gözəl binalar tikə bilməzdi. Əgər biz öz resurslarımıza arxalanmasaydıq, çətin vəziyyətə düşə bilərdik. Biz başqalarından fərqli olaraq, ancaq daxili imkanlar hesabına yaşayırıq, öz hesabımıza yaşayırıq. Gündən-günə daha da yaxşı yaşayırıq və gələcəkdə qarşıda duran bütün vəzifələr öz həllini tapacaqdır.



# Hüseynli Aişə



Füzuli rayon 47 saylı tam orta məktəblə tanış olanda müəllimlərin tez-tez adını çəkdiyi Aişə diqqətimi cəlb elədi.

Aişə Hüseynli məktəbin ən nümunəvi şagirdləri siyahısında adı ön cərgədə yer alan şagirdlərdən biridir.

2005-ci ildə Bakı şəhərində anadan olub. 2011-ci ildə 98 saylı Zəngilan tam orta məktəbinin birinci sinfinə qəbul olub. 2017-ci ildən Füzuli səhər 47 saylı tam orta məktəbinə daxil olub. Hal- hazırda məktəbin 7-ci sinfində oxuyur. Müəllimləri nümunəvi davranışı ilə nəyinki sinfə, eləcə də bütün məktəb yoldaşlarına ən gözəl nümunə kim tez- tez onun adını çəkirlər. Aişə dərs əlaçısıdır. O, bütün fənlərə eyni məsuliyyətlə yanaşaraq elmlərin sirlərinə dərindən yiyələnir.

Atası- Hüseynov Qalib ali təhsillidir. Sürücü işləyir.

Anası- Hüseynova Gülnarə müəllimədir.

Qardaşı Əli ikinci sinifdə oxuyur.

Aişə özünü sınamaq məqsədilə tez-tez sınaq imtahanlarında iştirak edir. Boş vaxtlarında müxtəlif məzmunlu məqalələr yazır. Aişə böyüyəndə jurnalist olmaq isdədiyini söyləyir.

Aişəni məktəbə belə möhkəm tellərlə bağlayan ibtidai sinif müəllimi Elza müəllimənin adını xüsusi ilə qeyd etmək istəyirəm. Aişənin təhsilində Elza müəllimənin birbaşa iştirakı ilə qoyulmuş sağlam bünövrəni nənəsi, həm də tarix müəllimi Vəfa müəllimə, digər nənəsi Lətafət müəllimə, Xalidə müəllimə və adını çəkmədiyimiz bir çox müəllimlər davam etdirirlər.

Aişənin arzuları da, ürəyi də nurludur. Biz bu balaca , lakin fədakar məktəbliyə yeni-yeni təhsil uğurları arzulayırıq.

# Salmanzadə Leyla



Leyla ilə ilk görüşümüzdən sonra məndə belə bir təəssürat yarandı: Valideynlər uşaqları böyüdür, uşaqlar isə öz növbəsində onları cilalayirlar. 12 yaşlı ciliz bir qızın nə dərəcədə agıllı, necə səliqəli və aglasığmaz dərəcədə Azərbaycanlı ola bilmək qabiliyyətinə heyran qaldım.

Salmanzadə Leyla . 2006-ci ildə Bakı şəhərində anadan olub. 2011-ci ildə 47 saylı məktəbin birinci sinfinə daxil olub.

Hazırda 7-ci sinifdə oxuyur.

Leyla sinifdə seçilən şagirdlərdən biri kimi həmişə müəllimlərin sevimlisi olub. Dərslərini yaxşı oxuyur, məktəbdə kecirilən bütün tədbirlərdə fəal iştirak edir. Leylada ədəbiyyat fənninə xüsusi maraq var. İbtidai sinifdən başlanan ədəbiyyat sevgisi yuxarı siniflərə keçdikcə daha da dərinləşib.

Xüsusi seir demək istedadı onu digər yaşıdlarından fərqləndirir.

Ədəbiyyata olan sevgisi Leylada incəsənətə xüsusi maraq yaradıb. Artıq bir neçə ildir ki, Leyla model kimi çixiş edir.

Anası Əliyeva Nuriyyə 1975-ci ildə Füzuli rayonunun Yuxarı Əbdürəhmanlı kəndində anadan olub. Gözəllik salonunda çalışır. Leylanın ədəbiyyata, incəsənətə olan marağını anası Nuriyyə xanımla bərabər bacısı Lamiyyə də dəstəkləyir. Lamiyyə Qərb Universitetində 2 kursda oxuyur.

Leyla seçdiyi məşguliyyətlə öz xarakterinin incəliyini göstərməyi bacarir. Biz isə öz növbəmizdə Leylaya uğurlu gələcək, müvəfəqiyyətli təhsil illəri arzulayırıq.



# Piriyev Bünyad Teymur oğlu

İnsanların təbiətlə əkiz doğulduğunu nağıl bilirdim. Amma təbiəti sözündə, duyğularında, yanaşmasında, sevgisində və əhval-ruhiyyəsində gəzdirən adamları gördükdə qəlbimdən belə bir səs keçir: Bu təbiət adamıdır.

Yuzlərlə, minlərlə adamların arasaından təbiət adamlarını seçmək çox çətin, çətin olduğu qədər də, asan olduğunu hiss edəndə həmsöhbət olduğun adamın duyğularını kitab kimi səhifələmək, onu lap ilk səhifədən oxumaq istəyirsən.

BDU-nun hüquq fakültəsinə daxil olan Bünyad Piriyev haqqında eşidəndə təbii olaraq sevindim. Çünki Bünyad 500 bal toplayaraq bu fakültəni qazanmışdı. Bu, cəmiyyətimizin sabahı üçün savadlı hüquqşünas demək idi.

Sevincimi bölüşmək və Bünyadın təhsilə doğru aparan yollarına nəzər salmaq məqsədilə üz tuturam Piriyevlər ailəsinə.

Ailənin başçısı Teymur müəllimlə tanışlıqdan sonra hiss edirəm ki, adət etdiyim sualların hec biri söhbətimizə istiqamət verə bilməyəcək. Çox maraqlı və olduqca səmimi müsahiblərimdən biri, cəmiyyətin ziyalı, uzaqgörən, yüksək mədəniyyət və geniş maraq dairəsinə malik olan ağsaqqalı Teymur müəllimə gəncliyin qocalıq yaşında "ağsaqqal" deməyim tam düşünülmüş, yerində işlənmiş bir ifadədir.

Ağsaqqal sözü əslində saçı ağarmış, yaşı keçmiş mənasında yox, qarşı tərəfə keçdiyi həyat təcrübəsindən topladığı tutarlı faktlar əsasında formalaşan dəyərli nəticələri tövsiyyə edən şəxs mənasında işlətdim.

Teymur müəllimə gəlişimin məqsədini izah edəndə gözlərində qəribə bir sevinc parladı. Övladalırını böyük diqqət və qayğıyla böyüdərək, onların məsuliyyətinə görə hər an narahatçılıq keçirən əsl ata obrazını mən deyərdim ki, Teymur müəllimin simasında kəşf etdim.

Piriyev Teymur Bünyad oğlu Füzuli rayonunda anadan olub. XTİ-nu bitirib. Hazırda ticarətlə məşğuldur. Teymur müəllimin tərcümeyi-halindan götürdüyüm bu qısa nüans onu adi insanlardan fərqləndirmir. Amma onu ata kimi səciyyələndirəndə görünür ki, Teymur müəllim vətəni, ölkəsi üçün fədakarcasına çalışan, xalqını sevən, milli kimliyinə hörmət edən və övladlarını da məhz bu ruhda böyüdən bir atadır. Bütün bu keyfiyyətlər Teymur müəllimin tərbiyyə edib böyütdüyü övladalrın təhsil, tərbiyyə və düşüncəsində özünü göstərir. Bunun bariz nümunəsi qəhrəmanım Bünyaddır.

Piriyev Bünyad Teymur oğlu 2000-ci ildə Bakı şəhərində anadan olub. 1 sinfə 238 sayli məktəbdə başlayıb. 1lk təhsil illərindən Bünyad müəllimlərin diqqətini özünə çəkə bilib. O, özünəməxsus düşüncə tərzi, dərsə məsuliyyəti, kitablara gösrərdiyi qayğı, elmə-təhsilə olan sonsuz sevgisi ilə müəllimlərin sevimlisinə çevrilmişdır. İldən- ilə püxtələşən Bünyad vaxt kecdikçə müxtəlif peşə və sənətlər haqqında düşünməyə, ən yaxın dostu olan Teymur müəllimlə fikir mübadiləsi etməyə başlayır. Vaxtaşırı aparılan müzakirələrdən sonra qərara alınır ki, Bünyad hüquqşünas olsa daha məqsədəuyğun ola bilər. Hüquqşünas ixtisasının şeçimi təsadüfi deyildi. Buna Bünyadın savadı, elmi istiqaməti və ən əsas da xarakteri və xarici görünüşü imkan verirdi.




Sağlam ideya uğrunda aparılan mübarizə həmişə uğurla başa çatır . Növbəti qələbənin biri: Piriyev BünyadTeymur oğlu BDU-nin hüquq fakültəsini qazandı.

Bünyadın maraq dairəsi çox zəngindir. O, günlərini təkcə kitab oxumaqla keçirmir. Boş vaxtlarında idmanla məşul olur. Bu onun həm zehni,həm də fiziki saglamlığına təkan verir.

Bünyad ilk baxışda ciddi görünsə də, çox ünsiyyətcil, mehriban gəncdir.Bu səbəbdən Bünyadın əhatəsində müxtəlif yaşda olan çoxlu dostları var.

Piriyevlər ailəsi ilə tanış olandan sonra məlum oldu ki, ailənin digər üzvləri də cəmiyyətimizin ziyalı təbəqəsindəndir. Bünyadın bacısı Leyli ADDU-ni bitirib. Sonra təhsilini İtaliyada davam etdirib. Digər bacısı Lalə Bakı Pedaqoli Texnikumunu bitirib. Hazırda Təhsil Nazirliyində işləyir.

Bünyadın bitkin bir şəxsiyyət kimi formalaşmasında Teymur müəllimlə yanaşı anası Bahar xanımın da rolu əvəzsizdir. İxtisasca musiqi müəllimi olan Bahar xanımın təsiri təkcə Bünyadın yox, eləcə də digər usaqlarını tərbiyyəsində də özünü qabarıq şəkildə göstərir. Təbiətə bağlılıq, vətənə təmənnasız sevgi, xalqına, milli kimliyinə dərin höprmət hissi Bahar xanımın laylalarında nüfuz edib usaqlara.

Beləcə daha bir ziyali azərbaycan ailəsilə tanışlığım hələlik sona catdı. Mən bitdi demək istəməzdim. Çünki inanıram ki, bu ailədə böyüyən uşaqların gələçək uğurlarını eşidəndə bizim yolumuz tez-tez bu evin qapısından düşəcək.

Mən Bünyada təhsildə böyük uğurlar arzulayaraq Piriyevlər ailəsilə sagollaşıram.

# DAHİ SİYASƏTÇİNİN DAHİ DAVAMÇISI

***Azərbaycan illərdir ki, müstəqillik əldə edib. Nəzərə alsaq ki, bu müstəqilliyin ilk iki ili yalnız səriştəsiz insanların hakimiyyət savaşına "həsr olunub" və eyni zamanda Ermənistanın təcavüzkar siyasəti ilə üz-üzə qalmışıq, bu gün dövlətimizin əldə etdiyi uğurlar bəlkə də eyni şərtlər daxilində başqalarının on illiklərdə qət etdiyi yoldan çoxdur.***



Azərbaycan dövləti 20 illik cavan bir tarixə malik olmasına baxmayaraq, dünyanın inkişaf tempi ilə ayaqlaşa bilib və müasir standartların, müsbət beynəlxalq təcrübələrin ölkəmizə gəlməsinə nail olub. Bu gün Azərbaycanın qarşısında yeni əsrin çağırışları dayanır. Ölkədə vətəndaş cəmiyyəti qurulub və dövlətimiz demokratik prinsiplərə sədaqət nümayiş etdirir. Azərbaycan ən müasir texnologiyalara qucaq açır, müasir tələbləri addımlarında ehtiva edir. Siyasi proseslərin müsbət istiqamətdə inkişafı Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına, xalqla iqtidar arasında birliyin möhkəmlənməsinə şərait yaradır. Azərbaycanın daha da güclü dövlətə çevirməsi üçün Prezident İlham Əliyev bu cür tezis irəli sürüb: "Azərbaycan "qara qızıl"ı insan kapitalına çevirir".

Azərbaycanda aparılan iqtisadi islahatlar artıq səmərəsini verir. ölkəmizdə ümumi daxili məhsul 96 faiz artıb. Uğurla həyata keçirilən sosial islahatlar isə cəmiyyətin inkişafında, xalqın rifah səviyyəsinin artmasında öz müsbət rolunu oynayır. Prezident İlham Əliyev parlamentin yaranmasının 90 illik yubileyində Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında sosialyönümlü islahatların rolunu müsbət dəyərləndirib. Yaşayış səviyyəsi ildən-ilə artan Azərbaycan xalqının rifah halı yaxşılaşır və bunun göstəricisi olan yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşür: "Son illərdə yoxsulluğun səviyyəsinin 49 faizdən 16 faizə düşməsi onu göstərir ki, bizim qəbul edilmiş bütün qərarlar, siyasi və iqtisadi islahatlar, uğurlu neft siyasətimiz, ilk növbədə, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilibdir. Sürətlə inkişaf edən bəzi cəmiyyətlərə xas olan təbəqələşmə prosesi Azərbaycan cəmiyyətində getmir. Əksinə, Azərbaycanda çox güclü orta sinif yaranır, sahibkarlar sinfi yaranır və bilirsiniz ki, bu sahəyə çox böyük diqqət göstərilir. Bu gün ölkə iqtisadiyyatının 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatının əsas hissəsini enerji resursları təşkil edir və enerji resursları dövlət nəzarətindədir, özəl sektor sürətlə inkişaf edir".

Xalqımızın böyük oğlu, Müstəqil Azərbaycan Respublikasının Prezidenti, müdrik və uzaqgörən insan İlham Heydər oğlu Əliyevi doğum günü münasibətiylə təbrik edirik. İlham Əliyev Azərbaycan xalqına bütün həyatı və fəaliyyəti ilə sədaqətini sübut etmişdir. Əsas qəhrəmanı xalq olan bu tarixin hər səhifəsi gənclərimiz üçün örnəkdir.Milli dövlətçiliyimizin inkişafı hüquqi və demokratik cəmiyyət yaradılması, vətəndaş həmrəyliyinin bərqərar olması istiqamətində göstərilən səylər ilk növbədə dövlətimizin başçısına minnətdar olmalıyıq.İnanırıq ki, Azərbaycan xalqının sınanmış lideri ,öz ölkəsinin çiçəklənməsi,bütün mövcud əngəllərin aradan qaldırılması səylərini bundan sonrada əsirgəməyəcək.

Dövlətimizin möhkəmləndirilməsi, müstəqilliyimizin, suverenliyimizin qorunması ərazi bütövlüyünün təmin olunması, xoşbəxt firavan, Azərbaycsan naminə hər kəs əlindən gələni əsirgəməməli, gələcək nəsillərə estafeti layiqincə çatdırmalıdırlar.bunun üçün isə hər bir azərbaycanlı İlham Əliyevi dəstəkləməlidir.



# Azərbaycan dövləti səhiyyənin inkişafına böyük qayğı göstərir



***Azərbaycanın iqtisadi, sosial-mədəni və digər sahələrdəki inkişafı ilə yanaşı, səhiyyə sisteminin təkmilləşməsinə göstərilən diqqət və qayğının, həyata keçirilən ardıcıl tədbirlərin nəticəsində bu sahədə əhaliyə göstərilən xidmət əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.***

Ölkəmizdə bu sahəyə böyük investisiyalar qoyulur və bunun gözəl nəticələri var. Azərbaycan səhiyyəsinin bugünkü inkişafı təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə də müsbət qarşılanır və Azərbaycanın iqtisadi qüdrətinin və sosial-siyasi nüfuzunun göstəricisi kimi qəbul edilir. Təsadüfi deyil ki, 2013-cü ilin may ayında Ümumdünya Səhiyyə Təşkilatının İcraiyyə Komitəsinin sessiyasında Azərbaycan bu qurumun birinci vitse-prezidenti kürsüsündə təmsil olunub. Əslində bu Azərbaycan dövlətinin əhalinin sağlamlığına göstərdiyi qayğının beynəlxalq aləmdə tanınması deməkdir.

Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində Prezident İlham Əliyev sosial infrastruktur layihələrinin böyük önəmini vurğulayıb. Qarşıdakı illərdə də sosial obyektlərin tikintisinin davam etdiriləcəyini və bütün bunların investisiya proqramının tərkib hissəsi olduğunu bəyan edib.

Qeyd edək ki, Azərbaycan Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının dinamik şəkildə artırılması, həmin vəsaitin səmərəli və məqsədyönlü istifadəsini təmin edən mexanizmlərin yaradılması nəzərdə tutulur. 2014-cü ilin ilk günlərində Prezident İlham Əliyevin iştirakı ilə Bakı Sağlamlıq Mərkəzinin açılması Azərbaycanda sosial sahənin inkişafına və əhalinin sağlamlığına göstərilən dövlət qayğısının daha bir təzahürüdür.

Ölkəmizin iqtisadi qüdrəti artdıqca, sosial sahəyə daha çox diqqət göstərilir və bu proses davamlı xarakter daşıyır. Səhiyyə islahatlarının mühüm istiqaməti olan tibb müəssisələri şəbəkəsinin və strukturunun təkmilləşdirilməsilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əhalinin sağlamlığının qorunmasında və tibbi xidmət keyfiyyətlərinin yaxşılaşdırılmasında mühüm uğurlar əldə olunub. Son 12 ildə səhiyyə sahəsində istifadəyə verilən 500-dən artıq səhiyyə müəssisələrinin 70 faizi regionların payına düşür. İndi Azərbaycanın bütün bölgələrində müasir, yaraşıqlı tibb mərkəzləri fəaliyyət göstərir. Onların hər birində keyfiyyətli tibbi xidmət üçün hər cür şərait və təchizat vardır. Bu gün nəinki Bakıda, hətta bölgələrimizdə də ən mürəkkəb cərrahiyyə əməliyyatları həyata keçirilir.

Azərbaycan səhiyyəsinin ən mühüm nailiyyətlərindən biri də kadr potensialının inkişafıdır. Son illərdə bu sahədə ciddi islahatlar aparılıb. Tibb təhsilinin baza təhsilinə və rezidenturaya bölünməsi, həkimlərin sertifikasiyası, mərkəzləşmiş imtahan yolu ilə işə qəbul bütün bunlar islahatların tərkib hissələridir.

Bu gün tibb mütəxəssislərinin səhiyyə sahəsində yeni texnologiyalar, diaqnostika və müalicə üsulları barədə biliklərini artırması üçün hər cür şərait var. İstedadlı gənclərə təhsillərini dövlət hesabına xarici ölkələrdə davam etdirmək imkanı yaradılır. Bu praktikanın müsbət nəticələrini Azərbaycanda kardiocərrahiyyənin və transplantologiyanın sürətli inkişafında görmək olar. Hazırda ölkəmizdə açıq ürək əməliyyatları, böyrək köçürülməsi artıq fövqəladə hal deyil, səhiyyəmizin gündəlik hadisəsinə çevrilib.

# Sultanov Salman



***Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər.Çünki mənəviyyatımız, gənclərin bu günkü və gələcək mənəviyyatı bununla bağlıdır.***

***Heydər Əliyev***

Bütün həyat və yaradıcılığını dinlədikdə əslində canlı tarix demək olar bəlkə də Salman müəllimə. Keşməkeşli həyat yollarından keçməklə uzun zaman ərzində çoxlu və dəyırli vəzifələrdə çalışıb. Salman müəllim 1951-ci ildə Azərbaycanın ən gözəl səfalı guşələrindən biri olan Kəlbəcər rayonunda dünyaya göz açıb. Elə həmin rayonun Almalı kənd orta məktəbini bitirib. Məktəb illərindən necə bilikli və dünyagörüşlü olmağı elə o vaxtkı müəllimləri tərəfindən aydınca sezilirdi. Məktəbi 1969-cu ildə bitirdikdən sonra Gəncə Dövlət Universitetinin Tarix fakultəsinə qəbul olur və 1973 cü ildə tələbə yoldaşlarından fərqli bilik və bacarıqları ilə məktəbi bitirir. Uşaqlıq və tələbəlik həyatı rəngarəng olduğu kimi iş və vəzifə həyatı da çox geniş olur Salman müəllimin. Universiteti bitirər-bitirməz öz doğma kəndinə qayıdaraq müəllim işləməyə başlayır. Öz müəllimlərindən öyrəndiyi bilik və bacarıqları bu dəfə parta arxasında əyləşən şagirdlərinə öyrədir səbrlə. 1974-1975 ci illərdə Ali Partiyada işə qəbul olur. 1975-1978 ci illərdə isə öz doğma məktəbinə direktor kimi qayıdır artıq. Salman müəllim dövrünün ən gənc fəallarından biri olur. Daima öz üzərində işləməklə uğura gedən yolunu özü yazır, demək olar ki. Gənc yaşlarında Xalq İcrayət Komitəsinin sədri seçilir. Və təbii ki bununla da bitmir Salman müəllimin gördüyü işlər. Müxtəlif illərdə rayon sovetinin deputatı, kənd sovetinin deputatı vəzifələrində çalışır. Bitmək bilməyən arzu və istəyi ilə daim irəliyə can atır. 1980-ci ildə Ağdam rayonunun Şıxbabalı kənd orta məktəbində direktor vəzifəsində çalışır. 1993-cü ildə isə Kəlbəcər rayonu 41 saylı tam orta məktəbdə müəllim işləyir. 1999-cu ildən 2014- cü ilə qədər kəlbəcər rayonu 126 saylı tam orta məktəbin direktoru olmuşdur. Hal- hazırda isə Salman müəllim həmin məktəbin ən peşəkar və bilikli tarix müəllimlərindən biridir. Salman müəllimin sözlərinə görə onun həyat qayəsi öz zəngin təcrübə və biliklərini illərdir yetişdirdiyi çox saylı tələbələrinə öyrətməkdir. Bizə də belə bir şərəfli müəllimin zəhməti qarşısında baş əymək düşür.



# Çıraqzadə Turab



**Dünya bir evdirsə, övlad işıqdır,**
**Oğul arxadırsa, qız yaraşıqdır..**

***(Səməd Vurğun)***

Ailəsinin arxa dayağı olan , onların gələcəkdə fəxr mənbəyi olmağını arzu etdiyi Turab 2009-cu ilin sentyabr ayının 14 də dünyaya göz açıb. 4 nəfərlik ailənin ən kiçik üzvü olan Turab xüsusi sevgi və nəvazişlə böyüdülüb. Ürəyəyatımlılığı və şirindilliyi ilə özünü hər yerdə sevdirməyi bacaran kiçik müsahibimiz, həm də ağlı, vətənpərvərliyi, kiçik yaşında böyük düşüncələri ilə yaşıdlarından fərqlənir. Məktəb həyatında da bu üstünlükləri ilə daha da irəliyə gedən Turab bu səbəbdəndir ki, müəllimlərinin diqqət mərkəzində olmağı bacarıb. Sinif müəllimləri və sinif yoldaşları onun haqqında hər zaman xoş fikirdə olub, onun ağlı və tərbiyyəsini çox yüksək qiymətləndiriblər.

Turabın məktəb həyatı 2015-ci ildə 17 saylı Kəlbəcər rayon tam orta məktəbində 1-ci sinifə qəbul olmağı ilə başladı. Oxumaq , yazmaq sevdası onu tez bir zamanda sinifin əlaçılarından biri etdi. Bununla yanaşı Turab idmanla peşəkar səviyyədə məşğul olur. Taekvando idman növü ilə məşğul olan Turab gələcəyin adlı sanlı , hörmət edilən idmançılarından biri olacağına ümid edirik. Amma Turabın arzusu başqadır. O , ailədə vətənpərvərlik hissi ilə böyüdülüb, məktəbdə bu ülvi hislər ona aşılandığından, o ,polis olmaq arzusundadır. Ən birinci ailəsinin , dövlətinin , vətəninin keşiyini çəkməyi kiçik yaşlarından özünə borc bilib. Bu şərəfli peşədə inanırıq ki, çoxlu uğur və nailiyyətlər əldə edəcək.

Ali təhsilli ailədə böyüyən Turabın atası Müşviq bəy hər zaman övladlarına doğru və dürüst bir həyat yolu seçməkdə dəstək olur. Anası Faina xanım isə tibb bacısdır və onun dərsləri ilə daha yaxından maraqlanmağa hər zaman diqqət göstərib. Qardaşı Fuad ilə eyni məktəbdə təhsil alan Turab hədəfləri, ona olan gözləntilər üçün çox çalışır və buna nail olmaq üçün əlindən gələni artıqlaması ilə edəcəyini bildirir. Biz də ona bu yolda uğurlar arzu edirik və ümid edirik ki , gələcəyimizin vicdanlı və şərəfli polislərindən biri olacaq.

# İsmayıllı Məryəm



**Əgər bir gün yolunuzu itirsəniz, bir uşağın gözlərinin içinə baxın. Çünki bir uşağın bir yetkinə hər zaman öyrədə biləcəyi üç şey vardır: 1. Səbəbsiz yerə xoşbəxt olmaq, 2. Hər zaman məşğul ola biləcək bir şey tapmaq, 3. Əldə etmək istədiyi şey üçün var gücüylə söyləmək . Böyük uğurlar qiymətli anaların yetişdirdikləri seçmə uşaqlar sayəsində olmuşdur.**
***(Atatürk)***

Uşaq qəlbi, sevinci və kədəri ilə ailəsinin baş tacı olan Məryəm 2011-ci ildə isti yay günlərindən birində avqust ayının 12- də paytaxt Bakıda dünyaya gəlib. Gəlişi ilə ailəsinə sevinc , xoşbəxtlik gətirən allahın bu şirin qız payı onlar üçün ümid işığı olub. 4 nəfərlik ailənin qız övladı olan Məryəm ailəsinin də sevimlisidir. 2017-ci ildə Kəlbəcər rayonu 17 saylı tam orta məktəbin 1-ci sinifinə qəbul olur. Hal -hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Dərslərində olduqca müvəffəqiyyətli olan Məryəm həm də gözəl rəsmlər çəkə bilir. Boş vaxtlarında rəsm çəkməklə dincəlir. Müəllimlərindən hər zaman xoş sözlər eşidən ailəsi Məryəmlə qürur duyurlar. Vətənpərvər , ailəsinə və məktəbinə bağlı bir uşaq olduğundan həm də çox tərbiyəli və mədəni uşaqdır. Anası Səbinə xanım evdar qadın olduğundan onun dərsləri, tapşırıqları , dərsə davamiyyəti ilə daha yaxından maraqlanır. Hər zaman müəllimlərinin Məryəm haqqında fikirlərini öyrənir. Atası Anar bəy də övladları, ailəsi ilə hər zaman maraqlanır ,onların hər işlərində dəstəkçisi olur. Qardaşı ilə oynamağı çox sevən balaca qızımız boş vaxtlarında şəkil çəkib ,rəngləməyi çox sevir. Uşaq yaşlarında olsa da Məryəmin ən böyük istəyi tələbə adını qazanmaq arzusudur. Onun ən böyük istəyi tibb universitetinə qəbul olmaq və gələcəyin savadlı və istedadlı həkimlərindən biri kimi formalaşmaqdır. Hal-hazırda 2-ci sinif şagirdi olan Məryəm həkim olaraq bütün xəstələrə şəfa vermək istəyir. O bildirir ki, bunun üçün çox çalışacaq və sonunda istəyinə, məqsədinə nail olacaq. Məryəmdə olan bu qətiyyət və inam, gələcəyə olan sonsuz ümid və məqsədləri uğrunda canla başla çalışmaq istəyi inanırıq ki, onu çox yüksək pillələrə gətirəcək. Əsas olan çalışmaq və özünə inanmaqdır ki, bu keyfiyyətlər də Məryəm də kifayət qədər var. Ümid edirik ki, rəngarəng, uğur dolu olan bu həyat yolunda büdrəmədən , hər zaman inanaraq irəli getsin. Ailəsinin fəxri və sevinci olsun.



# Hüseynova Lalə



Kompüter mühəndisliyi ixtisasının məzunları həm yerli, həm də beynəlxalq əmək bazarında ən çox tələb olunanlar sırasındadır. Onların işi əsas olaraq avtomatlaşdırılmış sistemlərin və kompüter şəbəkələrinin layihələndirilməsi, planlaşdırılması, qurulması, testləşdirilməsi, idarə olunması və optimallaşdırılmasından ibarətdir. Hal-hazırda ən çox tələb olunan ixtisaslardan biridir. Belə ki , Lalənin arzusu kompyuter mühəndisi olmaqdır. Texnikanın belə sürətlə inkişaf etdiyi bir dövrdə hər şey avtomatlaşdırılır və bu sahədə yüksək ixtisaslı kadrlara ehtiyac duyulur. Müsahibimiz Lalə də belə peşəkar kadrlardan biri olmaq istəyir.

Hüseynova Lalə Uğurlu qızı mart ayının 27 -də 2004-cü ildə dünyaya göz açır. Lalə 2009-cu ildə Kəlbəcər rayonu 17 saylı tam orta məktəbin birinci sinifinə qədəm qoyur. Istedadı , ağlı və bacarığı ilə tez bir zamanda seçilən Lalə tezliklə müəllimlərinin ürəyində fərqli yerə sahib olur. Sinif yoldaşları ilə arasında qırılmaz dostluq , yoldaşlıq bağları yaradır. Oxumaq , elm sahibi olmaq sanki onun ruhunu ələ keçirir. Hər gün daha çox səylə , istəklə çalışan Lalə inandığı məqsədlər uğrunda inamla irəliləyir. Hal-hazırda həmin məktəbin 9-cu sinifində oxuyan qızımız sinif üzrə əlaçıdır. Riyaziyyat fənnini çox sevir. Müəllimlərinə həddən artıq bağlıdır. Müəllimlik çox uca və ülvi sənətdir. Lalə bu sənətin adına layiq bir müəllimlər ilə qarşılaşdığına görə çox şanslı olduğunu bildirir. Dərslərində istedadlı olmaqla yanaşı , həm də dərsdən kənar fəaliyyətləri çox maraqlıdır. O , futbol oynamağı çox sevir. Boş vaxtlarında futbolla məşğul olur.

4 nəfərlik ailənin tək və kiçik qız övladı olan Lalə mehribanlığı , şirindilliliyi ilə özünü sevdirməyi bacarır. Valideyn toplantılarında Lalə haqqında deyilən xoş sözlər hər bir valideynin övladı üçün eşitməyi arzuladığı sözlərdəndir. Atası Uğurlu bəy ailəsinin maddi mənəvi bütün ehtiyaclarını ödəyir. Hər zaman onların arxasında dayanır. Anası Səkinə xanım isə evdar xanımdır. Lalə və qardaşı Nurlanın dərsləri ilə xüsusi məşğul olur. Onların təlim və tərbiyələri ilə yaxından maraqlanır. Lalə özü də qardaşını çox sevir və ona daima qayğı ilə yaxınlaşır, onun yanında olur həmişə. Ümid edirik ki, Lalənin həyatı da adı kimi gözəl , təravətli və rəngarəng olsun. Hər zaman ailəsinin fərəh mənbəyi olsun.

# Əliyeva Mahizər



***İnsanın daxilindəki yaxşılıq - bu günəşdir. Övladlarınız arasında oğlanla qıza fərq qoymayın, fərq qoymaq lazım gəlsəydi, mən qızları üstün tutardım.***

***(Hz.Muhəmməd s.ə.v.)***

Evin ilk və tək qızı, böyük övladı olan Mahizər ailəsi ata və anası tərəfindən həmişə sevilib. Ata ilə qız övladı arasında fərqli bir bağ olur deyirlər. Bəlkə də buna görədir Mahizərin atasına olan bağlılığı və həddən artıq sevgisi. Ailədə gördüyü sevgi, hörmət və tərbiyyəni evdən kənarda ən gözəl şəkildə nümayiş etdirən Mahizər buna görə hamının rəğbətini qazanıb.

Mahizər Əliyeva Allahverdi qızı 2003-cü ildə oktyabrın 20-də paytaxt Bakıda anadan olub. Ailəsi hər zaman maddi və mənəvi olaraq Mahirənin arxasında dayanıblar. O uğur qazansın deyə çalışıblar. Atası Allahverdi bəy sürücü işləməklə ailəsinin bütün ehtiyaclarını ödəyir. Anası isə evdar xanım olduğundan Mahizərin dərsləri və tərbiyyəsi ilə xüsusi məşğul olurdu.

Mahizər məktəb həyatına 2009-cu ildə Kəlbəcər rayonu 20 saylı tam orta məktəbdə başladı. 1-ci sinifdən başlayaraq dərslərini çox yaxşı oxuyan və əlaçı olan Mahizər tez bir zamanda müəllimlərinin və sinif yoldaşlarının rəğbətini qazanır. O , dəsrlərində bacarıqlı olmağı ilə yanaşı həm də rəsm çəkmək, rəqs etmək və musiqini də çox sevir.

4 nəfərlik bir ailədə böyüyən Mahizər hal hazırda 9 -cu sinifdə oxuyur. Onunla söhbətləşən zaman gələcək hədəflərini, məqsədini soruşduq. Mahizər bildirdi ki, ona dərs deyən savadlı və mehriban müəllimlərindən ilham alaraq müəllim olmaq istəyir. Vətənpərvər, öz ana dilimizə olan sevgisindən bağlılığından danışan Mahizər azərbaycan dili və ədəbiyyat müəllıməsi olub, şagirdlərinə dilimizin incəliklərini, dərinliklərini öyrətmək yönündə iddialıdır. O düşünür ki , əsas olan həqiqətən istəmək və cəhd etməkdir. Belə olan halda hər zaman uğurlu olursan. Inanırıq ki, Mahizərin həyat yolu hamar və uğur dolu olacaq.



# Mahmudov Nicat



**Kim əgər kömürçü yanından keçsə,**
**Qayıtmaz üst-başı batmadan hisə.**
**Ətirçi yanından keçərsə əgər,**
**Üstündən - başından tökülər ənbər.**

***(Əbülqasım Firdovsi)***

Bu şer parçası məhz Nicat üçün də keçərli idi. 2000-ci ildə mayın 21 də belə demək olarsa, kimyaçılar ailəsində doğulub Nicat. Ziyalı ailəsində doğulmağın verdiyi bir tərbiyə ilə dürüst və mədəni uşaq kimi böyüyüb. Atası AMEA-nın elmi tədqiqat Mikrobiologiya institutunda böyük elmi işçi kimi çalışıb. Anası isə 117 saylı Kəlbəcər rayonu tam orta məktəbdə kimya müəllıməsi işləyir. Ele , Nicat özü də həmin məktəbdə 2007 - ci ildə 1-ci sinifə qədəm qoyub. Anasının də eyni məktəbdə işləməsi ilə bağlı olduğuna görə Nicat dərslərinə daima ikiqat daha çox güclə çalışıb. Bu əzmi və iradəsi ilə daima göz qabağında olub. 2018 -ci ilde məktəbi müvəffəqiyyətlə bitirir. Ailənin bütün üzvləri kimyaçı olduğuna və qardaşı da BDU -nun kimya fakultəsində təhsil aldığına görə hamı Nicatın da buna oxşar ixtisas seçeceyini gözləyirdi. Amma o, DİM-in 2018-ci ildə ali məktəblərə qəbul imtahanında uğurlu nəticə göstərir və 322 balla BDU-nun Qazax filialının Pedoqoji fakultəsində Sosial iş ixtisasını seçir. Bu ixtisası niyə seçdiyini soruşanda cavabı çox maraqlı oldu. Biz ilk öncə bu ixtisasın tam olaraq nəyi əhatə etdiyini soruşduq. Nicat bildirdi ki," Sosial iş insanların onları əhatə edən mühitdə mümkün qədər daha yaxşı fəaliyyət göstərmələri üçün onlara yardım etməyə istiqamətlənmiş peşədir. Sosial iş ilə sosial işçilər məşğul olur. Sosial işçilər sosial planda müdafiə edilməmiş təbəqələrə: yaşlılar, əlillər, ailə mühitindən məhrum olmuş uşaqlar, QİÇS-ə yoluxmuş insanlar, qanunla münaqişədə olan insanların maraqlarının təmin edilməsinə və hüquqlarının müdafiə ediməsinə yönəlmiş qanunverici aktların və dövlət proqramlarının hazırlanmasında yaxından iştirak edirlər." Və belə bir ixtisası seçdiyi üçün özü ilə qürur duyur. Çünki düşünür ki , cəmiyyətdə çox az insan başqalarının problemlərini həll etmək üçün işlər görür. Uşaqlıqdan bəri ətrafındakı insanlar, dost tanışlar və yaxınları ilə əlaqələri çox sıx və daimi Olan Nicat bu işdə də uğur qazanacagına amindir. Çünki insanlarla əlaqə yaratmaq və onları başa düşmək onun sanki hər zamankı peşəsidir. O sadəcə univeristet illəri ərzində bu bilgiləri dəha da inkişaf etdirəcək.

"İnsanların səni tanımadıqlarından narahat olma, sən insanları tanımadığına görə narahat ol." Konfutsinin bu fikrini özünə prinsip götürən Nicat ətrafındakı bütün insanları yaxşı tanimaq istəyir.

# Ali Baş Komandanımızı xalq dəstəkləyir

***Olduqca qürurvericidir ki, ötən 14 ildə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, surətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradır. Bütün bu müsbət dəyişikliklər isə ulu öndərin qoyduğu yolun davamından başqa cür qiymətləndirilə bilməz. Dinamik sosial-iqtisadi inkişaf, ölkəmizin dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin zəngin siyasi-ictimai irsinin, ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Bu yüksəliş Heydər Əliyevin həm də uzaqgörən bir strateq olaraq müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir.***



Prezident İlham Əliyev həmişə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır. Biz cənab Prezidentin fəaliyyətində bunun əyani təsdiqini görürük. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda 1,9 milyon iş yeri yaradılıb ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Əməkhaqları beş dəfədən çox, pensiyalar səkkiz dəfədən çox artıb. Son 14 il ərzində ölkəmizdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib, yaxud təmir edilib, uşaq və gənclərin sağlam həyat sürməsi, ölkəmizdə güclü idmançı nəslinin yetişməsi üçün 43 Olimpiya İdman Kompleksi inşa olunub. 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı işlərin sadəcə qısa bir hissəsinin statistikasıdır.

Respublikamız ötən 14 ildə böyük inkişaf yolu keçib. 14 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə yüksəlib. Sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Azərbaycanda 1,9 milyon iş yeri yaradılıb və onlardan 1,4 milyonu daimi iş yeridir. Həmin dövr ərzində Azərbaycan iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub. Azərbaycan regional inkişaf proqramlarının maliyyələşdirilməsini öz maliyyə qaynaqları hesabına təmin edib. Diqqət yetirsək, görərik ki, birinci proqramın icrasına başlanılan zaman Azərbaycanın strateji valyuta ehtiyatları cəmi 1,8 milyard dollar idi. Dövlət kifayət qədər əhatəli və böyük regional inkişaf proqramına bu rəqəmlə start verdi. Buna baxmayaraq, hökumət ilk proqrama lazım olan vəsaitin ayrılmasını təmin edə bildi və hər istiqamət üzrə nəzərdə tutulmuş konkret tədbirlər planı maksimum səviyyədə icra olundu. Hazırda valyuta ehtiyatlarımız 42 milyard dollara bərabərdir. On dörd il ərzində valyuta ehtiyatlarımızı 23 dəfə artıb. Bu gün adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Həmin vəsaitlər böyük investisiya layihələrinə, infrastruktur layihələrinə, neft-qaz kəmərlərinin tikintisinə sərf olunub

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf kursunu daha da zənginləşdirən Prezident İlham Əliyevin siyasi iradəsi, zəngin dövlətçilik təcrübəsi, titanik işgüzar keyfiyyətləri, ən əsası isə xalqa olan dərin məhəbbəti, vətənpərvərliyi müstəqil Azərbaycan dövlətinin gələcək inkişafına təminat verən yeganə amildir. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti bundan sonra da böyük tərəqqi yolu keçəcək və yaxın dövrlərdə inkişaf etmiş dövlətlərin cərgəsinə qoşulacaq.Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Qarşıdan gələn seçkilərdə də Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin seçimi məhz İlham Əliyevdir. Çünki bu seçim Heydər Əliyev yolunun davamı, inkişaf və güclü dövlətçilik deməkdir və Azərbaycan xalqı buna alternativ görmür.

Azərbaycanın qısa zaman kəsiyində böyük inkişaf yolu keçməsi müstəqilliyimizin ən böyük uğurlarından biridir. Heydər Əliyevin qurduğu Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir və qüdrətlənir. İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz mühüm siyasi-iqtisadi və sosial uğurlara nail olub. Azərbaycan qlobal maliyyə böhranlarını qısa müddətdə inkişafla əvəzləyib. Bu gün respublikamız siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Beləliklə, Prezident İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifidir. Yüksək siyasi iradəsi, məqsədə doğru inamla irəliləməsi, praqmatizmi, təvazökarlığı və səmimiliyi, ən əsası Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olması cənab Prezidentə xalqın böyük rəğbətini qazandırıb. Beynəlxalq qurum və təşkilatlar da birmənalı şəkildə etiraf edirlər ki, İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycanın inkişafı sürətlənib, beynəlxalq nüfuzuna görə dünyanın lider dövlətlərindən birinə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan bütün uğurlar Heydər Əliyev siyasətinin və ideyalarının davam etdirilməsinin və yeni dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirilməsinin nəticəsidir.

2003-cü ildə cənab İlham Əliyevi dəstəkləyən xalqımız bununla ulu öndər Heydər Əliyevin ideyalarının həyata keçirilməsinin davamına, təhlükəsizliyə, inkişafa səs verdi. Aradan ötən 14 ildən artıq bir dövr xalqımızın bu seçiminin nə qədər doğru, düzgün və müdrik olduğunu təsdiqləyir. Bəli, Azərbaycan bu illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında yüksəliş dövrünü yaşayıb, qüdrətlənib, nüfuzunu artırıb. Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini gündən-günə möhkəmləndirib, milli mənafelərimizi cəsarətlə və uğurla təmin edib, qloballaşmanın doğurduğu əngəllərin və maneələrin qarşısını qətiyyətlə alıb. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı sürətli inkişaf yoluna çıxarıb, beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib. Bu gün regionun lideri və kosmos dövləti olan, beynəlxalq enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan qlobal əhəmiyyətli məsələlərdə söz və nüfuz sahibidir.Reallıq həm də ondan ibarətdir ki, son 14 ildə Azərbaycanın bütün bölgələri tarazlı şəkildə inkişaf edib, şəhər və kəndlər, qəsəbələr intibah dövrünə qədəm qoyub. Respublikamızın ərazisi başdan-başa tikinti, quruculuq meydanına çevrilib. Ölkədə həyata keçirilən sosial infrastruktur layihələri Azərbaycan vətəndaşının firavan həyat tərzinin təmini məqsədinə xidmət edir. Ölkənin iqtisadi uğurlarını hər bir vətəndaş öz gündəlik həyatında, məişətində hiss edir. Yaşayış binaları, evlər, məktəb və xəstəxanalar, sosial obyektlər tikilir, yollar çəkilir, körpülər salınır, park və xiyabanlarda, memarlıq binalarında yenidənqurma işləri aparılır. Son illər Azərbaycanın siması büsbütün, tanınmaz dərəcədə dəyişib. Bunu ölkəmizə gələn qonaqlar da səmimiyyətlə etiraf edirlər.



Prezident İlham Əliyev ötən dövr ərzində hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirib. Prezident İlham Əliyevin təşəbbüs və dəstəyi hesabına başa gələn böyük iqtisadi, enerji və nəqliyyat layihələri dünya dövlətləri üçün mühüm əhəmiyyət kəsb etməklə, regionun inkişafına layiqli töhfələr verir.















# TƏHSİL YENİLİKLƏRİ

Xüsusi buraxılış Oktyabr 2018-ci il (10)








Təsisçi:
İsa Əkbərov

Baş redaktor:
Samir Əkbərov

Müxbirlər:
Vəfa Babayeva
Gülarə Mirzəyeva

"Təhsil yenilikləri"
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan
Respublikası
Bakı şəhəri, Mətbuat
prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın
kompüter mərkəzində
yığılıb, səhifələnib,
çap olunmuşdur.

Tiraj - 500

Tel: 070-988-82-83
070-255-78-78